# TƏDRİS ƏDƏBİYYATININ STRUKTURU ÜZƏRİNDƏ REDAKTOR İŞİ

U.H.CANIYEVA

Bütün elmi əsərlərin, o cümlədən tədris ədəbiyyatının strukturunun redaktor təhlilini şərti olaraq işin müstəqil mərhələsinə aid etmək mümkündür. Əlyazmanın məzmununun öyrənilməsi, yəni təhlil edilməsi, ilk növbədə onun strukturunun qiymətləndirilməsi ilə vəhdət təşkil edir. Əlyazmanın forması ilə məzmunu arasında vahid ahəngdarlıq olmalıdır. Bununla yanaşı struktur elementlərinin ən kiçicik hissələrinə qədər öyrənilməsi, həmçinin diqqətin təhlilin bu aspektinə istiqamətləndirilməsi materialın şərhində aydınlıq yaratmağa, oxucu marağına, mətn parçasının elmi-dərki nöqteyi-nəzərincə daha vacib olanına doğru istiqamətləndirməyə imkan verir.

Müəllif əlyazmanın strukturunu təhlil edərkən əsərdə inkişafın daxili məntiqinin, nəşrin məqsədyönlülüyünün və aktuallığının şərti qaydalarına uyğunluğunu, oxucu auditoriyasını cəlb edə bilməsi tələblərinə riayət edib-etməməsini izləmək vacibdir. Redaktor əlyazma müəllifinin potensialının fərdi yaradıcılığının əsərin strukturunda nə dərəcədə tam realizə olunmasını aşkarlamalıdır.

Tədris ədəbiyyatının strukturu onun müxtəlif hissələri arasındakı qarşılıqlı əlaqəni, ardıcıllığı və mütənasibliyi əks etdirir. Əsərin strukturu predmetin inkişafının daxili məntiqi və xarakteri ilə əsərin janr xüsusiyyətləri, həmçinin şərhin müəllif üsulu ilə şərtlənir.

H.M.Sikorskiyə görə materialın şərhinin qiymətləndirilməsində ədəbiyyatın hər hansı bir növ və janrının strukturu ümumi, həmçinin tədris ədəbiyyatı üçün xarakterik olan meyarlara əsaslanmalıdır. Tədris ədəbiyyatı onun hansı elmi əhatə etməsindən və həcmindən asılı olmayaraq onu şərti olaraq üç hissəyə ayırmaq mümkündür: **giriş, əsas hissə və nəticə.**

**Giriş** oxucunun materialı qavramaq hazırlığına kömək etməlidir. Burada əlyazmanın mövzusu, mövzunun araşdırılma aspektləri ifadə edilir. Giriş hissəsində müəllif mövzunun aktuallığını və yeniliyini, ədəbiyyatda nəzərdən keçirilən elmi problemlərin əhatəliyi dərəcəsini, onların başqa elmi müəssisələrdə, müxtəlif sahələrin alimləri üçün elmi-təcrübi əhəmiyyətini qeyd edir.

Giriş hissəsi oxucunu elə ilk səhifədəncə cəlb etməli, onda əsərə məqsədyönlü maraq oyatmalıdır. Bu hissədə kitabdakı problemlərin vacib və

mürəkkəb aspektlərindən danışılır, materialın şərhinin qayda və metodları müəyyənləşdirilir.

Kitabın giriş hissəsi əsas hissəyə keçid üçün bünövrə yaradır.

**Əsas hissə** müəllif konsepsiyasını əks etdirir, mövzunu açır, ideyanı realizə edir. O, müəllifin şərh etdiyi elmi-tədqiqat materialının analizi və sintezi əsasında predmet və ya hadisə haqqında yeni biliyin formalaşmasına xidmət edir.

Elmi informasiyanın tam təsəvvür dərəcəsi əsərin janr spesifikası, onun kommunikativ funksiyaları tərəfindən diktə olunur.

**Nəticədə** oxucu qavramasının psixoloji və məntiqi nöqteyi-nəzərincə vacib olan elmi tədqiqata yekun vurulur, əsas nəticələr formalaşır, məsələnin gələcək tədqiqatının mümkün olan yolları nəzərdə tutulur, tövsiyələr verilir. Məhz nəticə müəllifin elmi problemin həllinə yönələn baxışlarını dəqiqləşdirməli, bu və ya digər predmet və ya hadisənin dərkinin ümumiləşdirilməsinə doğru istiqamətlənməlidir.

Əlyazmanın həm girişi, həm əsas hissəsi, həm də nəticəsini nəzərdən keçirən redaktor bir məsələni dəqiq həll etməlidir: əlyazmanı elə tədqiq etməlidir ki, oxucu qədər onu dərk etmək iqtidarında olsun.

Əlyazma mürəkkəb olmadıqda redaktor mətnin oxucuya nə qədər anlaşıqlı olmasını müəyyən etmək iqtidarındadır. Mətn mürəkkəb olarsa çətinlik yaranar, dərk etmə prosesi haçalanar. Redaktor mətni həm oxucu kimi, həm də bir fərd kimi qavramaq üçün müxtəlif vasitələr axtarmalıdır.

Redaktorun ən əsas vəzifələrindən biri materialın dəqiq plan üzrə şərhinə diqqət yetirməsidir: əsərin planı tam şəkildədirmi yoxsa yarımçıqdır? Əlyazmanı uğurlu hesab etmək olar və yaxud zəiflik duyulur?

Əgər əlyazma redaktor tərəfindən zəif qiymətləndirilirsə, o, müəlliflə birgə əlyazma üzərində işləməlidir.

Kompozisiya üzərində iş, bu işin redaktə prosesində təkmilləşdirilməsi redaktor qarşısında qoyulan ən vacib, ən məsuliyyətli və demək olar ki, ən çətin məsələdir. Əsərin hansı planda yazılmasını başa düşmək üçün redaktor ilk növbədə mündəricata nəzər yetirməlidir. Bəzən də əsərin planını aydınlaşdırmaq üçün tək mündəricat kifayət etmir. Ola bilər ki, mündəricatda böyük hissələr əksini tapmış olsun. Odur ki, planın uğurlu qurulub-qurulmamasını müəyyən etmək üçün bütün əsəri diqqətlə oxumaq və şərhin əsas qayələrini aydınlaşdırmaq lazımdır.

Əlyazmanın planını qiymətləndirərkən onun hər bir tərkib hissəsinin uğurlu bölüşdürülməsinə diqqəti daha çox ayırmaq vacibdir. Əlyazma tərkib hissələrə, bölümlərə, fəsillərə, paraqraflara və s. ayrılmalıdır. Belə bölgü rubrikasiya adlanır.

Hər bir əsər (məqalə və kiçik qeydlər nəzərə alınmasa) biri digəri ilə sıx əlaqədə olan müəyyən hissələrə ayrılır. Burada bir qanunauyğunluğu da müəyyən etmək mümkündür. İş planı nə qədər dəqiq olarsa və daha kiçik hissələrə bölünərsə, o daha oxunaqlı, asan qavranılmış olar.[1]

---

[1] Лихштейн Е.С., Сикорский Н.М., Урнов М.В. Теория и практика редактирования книги. М., 1961, с.193.

Mətnin quruluşundakı səhvləri vaxtında və düzgün aşkarlamaq üçün redaktor mətnin quruluşunun növ və yarımnövlərini nəzərdən keçirməli, mətnin hansı növə və yarımnövə aid olmasını müəyyənləşdirməlidir. Redaktor həmçinin kompozisiyanın təhlili və qiymətləndirilməsi zamanı onların məntiqəuyğunluğunu təmin etməsinə də əmin olmalıdır. Məntiqi tələblərdən yayınma halları kompozisiya səhvlərinin əsas əlamətidir.

Quruluşun məntiqi tələbləri, necə deyərlər, anlayışın məntiqi qaydalarında öz əksini tapmışdır. Hər bir əsərin və ya onun hissələrinin bir ifadədən artıq və müəyyən mövzuda olduğuna görə, hər bir mövzunu bir anlayış kimi nəzərdən keçirmək və onları bölmənin qəbul olunmuş məntiqi qaydaları üzrə ayırmaq, bölmək mümkündür.

Anlayışın bölünməsi – onun həcminin açılmasının məntiqi əməliyyatıdır.

Anlayışın (mövzunun) hissələrə (yarımmövzulara) ayrılmasının düzgünlüyünün qaydaları bunlardır:

**1) Bölünməni əsaslandıran qaydalar.** Bölünmə əsaslı olmalıdır, yəni, hissələr (yarımnövlər) arasındakı növ fərqlərinin əsasını təşkil edən bir prinsip (əlamət) üzrə aparılmalıdır.

**2) Mütənasiblik qaydası.** Burada adekvatlıq gözlənilməlidir, yəni mətnin hissələrinin cəmi bütün mətnin (cinsi anlayışla) həcminə bərabər olmalıdır.

**3) Qarşılıqlı inkaretmə –** sonadək çatdırılmanı nəzərdə tutur, yəni belə hissələrə bölünmələrin hər birinin digərini inkar etməsidir.

**4) Bölünmənin fasiləsizliyi qaydası** tələb edir ki, mətn əvvəlcə eynicinsli hissələrə ayrılsın, sonra daha kiçik hissələrə (növaltılarına) bölünsünlər.[1]

Kompozisiya – latın (kompozitio) sözüdür. O, inşa, qurma, birləşdirmək mənalarını bildirir. Ədəbiyyat nəzəriyyəsi kompozisiyanı ədəbi əsərin bütün hissələrini vahid şəkildə özündə birləşdirən, həyat səhnələrini tam təsəvvüründə müəllif anlayışına kömək edən və onu qiymətləndirən quruluşu kimi müəyyən edir.

Qeyd etmək lazımdır ki, bədii və qeyri-bədii əsərlərin qurulması arasında prinsipial fərq mövcuddur. Bədii əsər süjetin qanunlarına uyğun, qeyri-bədii əsər isə plan qaydaları üzrə qurulur.

Qeyri-bədii əsərin kompozisiyası məsələlərini ümumilikdə deyil, əsasən redaktorun əlyazma üzərində işi ilə əlaqədar nəzərdən keçirək.

Kompozisiya üzərində iş, onun redaktə prosesində təkmilləşdirilməsi – redaktor qarşısında duran əsas, məsuliyyətli və ən çətin məsələdir. Bu çətinlik məlum məsələnin həllində əsərin dərindən və tam şəkildə qavranılmasını tələb edən, müəllif təfəkkürünə daxil olan mürəkkəblik ilə izah edilir.

Redaktorun vəzifəsi yalnız kompozisiyanın məntiqi xüsusiyyətlərini yoxlamaqla məhdudlaşmamalıdır.

Kompozisiyanın redaktor təhlili – müəllifin qarşıya qoyduğu məsələyə, əsərin məzmununa, oxucu marağına, materialın oxucu tərəfindən qav-

---

[1] Мильчин А.Э. Методика редактирования текста. М., «Книга», с.120-123.

ranılması şərtlərinə uyğun olaraq ən mürəkkəb, ən əsas kompozisiya sisteminə sadiqliyi müəyyənləşdirmək deməkdir.

Kompozisiyanı məzmundan ayrılıqda təsəvvür etmək mümkün deyil. Məzmun dəyişdikdə kompozisiya da dəyişir. Tərəddüd etmədən demək olar ki, kompozisiya nəticəni irəlicədən müəyyənləşdirir, müəllifin gəldiyi və oxucunun qəbul etdiyi nəticəni müəyyənləşdirir.

Əgər kompozisiya prinsipcə mətnə uyğun deyilsə (yəni, onun məqsəd və məramlarına cavab vermirsə) əsər məzmunca heç də qənaətbəxş hesab edilə bilməz.

Kompozisiya aşağıdakı tələblərə cavab verməlidir.

1. Kompozisiya əsərin və mətn fraqmentinin məzmunu məsələsinə uyğun olmaqla yanaşı daha məqsədyönlü həllinə kömək etməlidir;

2. O, redaktor və müəllif tərəfindən əsaslı olaraq seçilən mətnin quruluşunun mətnin məzmun və təyinatından irəli gələn, obyektiv diqtə olunan növünün və ya yarımnövünün məntiqinə tabe olmalıdır;

3. Məntiqi cəhətdən qüsursuz (anlayışın bölünməsi qaydaları tətbiq edilərsə, onlara məntiqi cəhətdən cavab verən) olmalıdır.

A.E.Milçinin qeyd etdiyi bu əsas tələblər mətnin kompozisiyasının redaktor təhlilinin, vərdiş və metodikasını müəyyənləşdirir.[1]

Mətni oxuyan, daha doğrusu, mətnlə tanış olan redaktor fikrində onun planını yaradır, yəni mətni müvafiq hissələrə ayırır, hissələrin birinci və ya qeyri-dərəcələrini aydınlaşdırır. Belə planlaşdırma zamanı redaktor mətnin, ifadələrin quruluşunu, ardıcıllığını və ya qeyri-ardıcıllığını nəzərdən qaçırmamalıdır.

Kompozisiyanın məntiqliyinin, hissələrin ardıcıllığının dərk edilməsi yalnız mətnin təhlilindən sonra mümkündür.

Əgər redaktor fikrən mətnin quruluşunu qiymətləndirə və təhlil edə bilərsə, təhlilin metodikası artıq dəyişmiş olur. Buna da əksər hallarda kompozisiya təhlilinin vərdişləri köməklik göstərir. Belə vərdişlərin üç əsas qrupunu ayırmaq olar:

1. Fikrən qurulmuş planın vərdişlər qrupu mənbələrinin ayrılmasını və onun digər ifadə vahidləri ilə əlaqəsinin yerini müəyyən etmək. Bura aşağıdakı vərdişlər daxildir:

a) bir ifadədən digərinə keçidi qeyd etmək;

b) hər bir bitmiş bir fikrin ifadə vahidinin formalaşdırılmasını təmin etmək;

v) İfadə vahidlərinin məna istinad mənbələrinin ayrılmasını və onun digər ifadə vahidləri ilə əlaqəsinin yerini müəyyən etmək.

2) Mətnin quruluşundakı növ və yarımnövləri müəyyən edən vərdişlər qrupu:

a) fikrən tərtib edilmiş planın gedişatı üzrə mətnin qurulması növü;

b) ifadələrin və ya xaric ifadələr tamlığındakı növdaxili sxemini görmək və formalaşdırmaq.

---

[1] Мильчин А.Э. Методика редактирования текста. М., «Книга».

3. Vərdişlərin daxil olduğu kompozisiyaların məntiqliyinin yoxlanılmasının vərdişlər qrupu.

Yuxarıda qeyd olunan vərdişlərə yiyələnən redaktor quruluşun növünün və yarımnövünün sonadək çatdırıldığını, mətnin kompozisiyasının məntiqi əsaslara cavab verdiyini qısa müddətdə müəyyən edir, ən əsası da odur ki, diqqəti kompozisiyanın təhlili zamanı kompozisiyanın əsərə və ya mətn fraqmentinə uyğun olub-olmamasına cəmləndirir.

## ƏDƏBİYYAT


1. Лухтенштейн Е.С., Сикорский Н.М., Урнов М.В. Теория и практика редактирования. М., «Высшая школа», 1961.
2. Мильчин А.Э. Методика редактирования текста. М., «Книга», 1980.
3. Редактирование отдельных видов литературы. Под ред. Н.М.Сикорского. М., «Книга», 1987.
4. Справочная книга редактора и корректора. М., «Книга», 1985.
5. Почечуев А.Н. Вычитка рукописи. М.-Л., 1947.
6. Kamandar Şərifli. Mətnşünaslığın əsasları. B., 2003.
7. Çap əsərlərinin biblioqrafik təsvir qaydaları. ADU, B., 1984.
8. Babayev F. IV hakimiyyət. B., «Renesans» nəşr., 2000.


## РАБОТА РЕДАКТОРА НАД ЯЗЫКОМ И СТИЛЕМ РУКОПИСИ

**У.Г.ДЖАНИЕВА**

## АННОТАЦИЯ

В статье автор анализирует редакторскую работу над рукописью, редакторское исследование текста и т.д.